Azərbaycan Respublikası iqtisadiyyat nazirinin
17 may 2024-cü il tarixli 3-21/3-1-F-54/2024
nömrəli əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında**
**Dövlət Vergi Xidmətinin Aparatının**

# Vergi siyasəti baş idarəsinin ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra – Dövlət Vergi Xidməti) Vergi siyasəti baş idarəsi (bundan sonra – Baş idarə) vergi siyasətinin və vergitutma məsələlərinin müəyyən edilməsi istiqamətində araşdırmaların və islahatların aparılması, vergi qanunvericiliyinin, habelə sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə sosial sığorta, işsizlikdən sığorta və tibbi sığorta qanunvericiliyinin (bundan sonra - sığorta qanunvericiliyi) və inzibatçılığının təkmilləşdirilməsi, vergi və sığorta qanunvericiliyinin tətbiqi sahəsində (bundan sonra – müvafiq sahədə) bu Əsasnamə ilə müəyyən edilmiş əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq vəzifələri icra edən və hüquqları həyata keçirən Dövlət Vergi Xidmətinin Aparatının müstəqil struktur bölməsidir.

1.2. Baş idarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi"ni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə İqtisadiyyat Nazirliyinin qərarlarını, Nazirliyin və Dövlət Vergi Xidmətinin əmrlərini və sərəncamlarını (bundan sonra - İqtisadiyyat Nazirliyinin qərarları, Nazirliyin və Dövlət Vergi Xidmətinin əmrləri və

sərəncamlarına münasibətdə - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Baş idarə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin Aparatının struktur bölmələri, strukturuna daxil olan qurumları və strukturuna daxil olmayan tabeliyindəki qurumları (bundan sonra - Dövlət Vergi Xidmətinə münasibətdə - Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları), dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Baş idarənin əsas fəaliyyət istiqamətləri

2.0. Baş idarənin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. Vergi siyasətinin və vergitutma məsələlərinin müəyyən edilməsi istiqamətində araşdırmaların və islahatların aparılmasını təmin etmək;

2.0.2. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsini təmin etmək, vergi qanunvericiliyinin və sığorta qanunvericiliyinin tətbiqi ilə bağlı izahlar vermək, habelə vergi qanunvericiliyi və sığorta qanunvericiliyi ilə bağlı təkliflərə qanunvericilikdə müəyyən edilmiş qaydada və müddətdə baxılmasını, həmin sənədlərin araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

2.0.3. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planların və tədbirlər planlarının hazırlanması işini həyata keçirmək;

2.0.4. Vergi və sığorta qanunvericiliyində vergitutma ilə bağlı birbaşa tənzimlənməyən, habelə ziddiyyətli və aydın olmayan məqamlar yaradan məsələlər üzrə Dövlət Vergi Xidməti adından vahid yanaşmanı həyata keçirmək və tənzimləmə mexanizmini formalaşdırmaq;

2.0.5. Müvafiq sahədə təşkilati və nəzarət tədbirlərini və metodiki rəhbərliyi həyata keçirmək;

2.0.6. Müvafiq sahədə dövlət vergi siyasətinin formalaşmasında iştirak etmək;

2.0.7. Müvafiq sahənin inkişafı üçün tədbirlər görmək;

2.0.8. Müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək.

## 3. Baş idarənin vəzifələri

3.0. Baş idarə, bu Əsasnamənin 2-ci hissəsi ilə müəyyən edilmiş əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. Vergi siyasətinin inkişaf konsepsiyasının hazırlanmasında iştirak etmək və onun həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

3.0.2. Ölkədə aparılan iqtisadi islahatlara uyğun olaraq vergi və sığorta qanunvericiliyinin təkmilləşdirilməsi, o cümlədən, vergitutma bazasının genişləndirilməsi və vergi yığımının yaxşılaşdırılması məqsədilə araşdırmalar aparmaq və təkliflər vermək;

3.0.3. Bu əsasnamə ilə Baş idarənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə Baş idarəyə daxil olmuş məktub, sorğu, təklif və digər sənədlərə, o cümlədən iqtisadi sahə üzrə qanunvericiliklə bağlı hüquqi akt layihələrinə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, həmin sənədlərin araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

3.0.4. Baş idarənin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə Dövlət Vergi Xidmətinin rəisi ilə razılaşdırılmaq üçün Baş idarəyə daxil olmuş hüquqi akt və məktub layihələrinə rəylər hazırlamaq və Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim etmək;

3.0.5. Vergi və sığorta qanunvericiliyi sahəsində, habelə iqtisadi sahədə, hazırlanmış hüquqi akt və normativ sənəd layihələrinə rəy və təkliflər bildirmək;

3.0.6. Vergi və sığorta qanunvericiliyinin digər hüquqi aktlara uyğunlaşdırılması istiqamətində təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

3.0.7. Aşağıda qeyd olunanlar nəzərə alınmaqla vergi və sığorta qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində hüquqi akt layihələri hazırlamaq:

1. orta müddətli dövr üçün nəzərdə tutulmuş vergi siyasətinin əsas strateji hədəfləri;
2. vergi və sığorta qanunvericiliyinin tətbiqi ilə bağlı daxil olmuş sorğular cavablandırılarkən qanunvericilikdə müəyyən olunan ziddiyyətli və aydın olmayan məqamlar;
3. vergi və sığorta qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, digər dövlət müəssisə və təşkilatlarından, hüquqi və fiziki şəxslərdən, habelə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından daxil olan təkliflər;
4. məhkəmə mübahisələri, vergi cinayətlərinin ibtidai araşdırılması, habelə vergi orqanlarının fəaliyyəti üzrə İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurasında və Dövlət Vergi Xidmətinin Aparatının aidiyyəti struktur bölməsində inzibati şikayətlərə baxılması zamanı qarşıya çıxan suallar, problemlər və yol verilən nöqsanlar.

3.0.8. İqtisadiyyatın prioritet hesab edilən sahələrinin stimullaşdırılması məqsədilə mövcud iqtisadi siyasət nəzərə alınmaqla, vergi güzəştlərinin və azadolmaların səmərəliliyi üzrə aparılmış təhlillər əsasında vergi və sığorta qanunvericiliyində dəyişikliklərin edilməsi ilə

bağlı təkliflər vermək, tələb olunduqda Dövlət Vergi Xidmətinin aidiyyəti strukturlarının iştirakı ilə təkliflərin müzakirəsini təşkil etmək, məqsədəuyğun hesab edilmiş təklifləri əks etdirən hüquqi akt layihələrini hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

3.0.9. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsinin istiqamətlərini və bu sahədə həyata keçiriləcək digər tədbirləri müəyyən etmək;

3.0.10. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının tətbiqi və təkmilləşdirilməsi ilə bağlı vətəndaşlardan, vergi ödəyicilərindən, dövlət və yerli özünüidarəetmə orqanlarından, habelə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından daxil olmuş sorğuları (vergi və sığorta qanunvericiliyində birbaşa nəzərdə tutulan və aşkar tənzimlənən məsələlər ilə bağlı cavablandırılması Dövlət Vergi Xidmətinin strukturuna daxil olan qurumları tərəfindən, həmçinin funksional məsələlər üzrə Dövlət Vergi Xidmətinin Aparatının aidiyyəti struktur bölmələri tərəfindən cavablandırılan sorğular istisna olmaqla) araşdırmaq, müvafiq cavab layihələrini hazırlamaq və müvafiq sahədə öz səlahiyyətləri çərçivəsində izah verməklə bu sahədə vergi siyasətinin formalaşdırılmasında iştirak etmək;

3.0.11. Vergi Məcəlləsinin müddəalarına və formalaşmış vergi siyasətinin tətbiqinə uyğun olaraq müxtəlif fəaliyyət növlərinin və ayrı-ayrı əməliyyatların vergiyə cəlb olunması, habelə sığorta qanunvericiliyinin tətbiqi barədə zərurət yarandıqda göstəriş məktublarını hazırlamaq və xidməti istifadə üçün Dövlət Vergi Xidmətinin aidiyyəti struktur bölmələri və qurumlarına göndərilməsini təmin etmək;

3.0.12. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının tətbiqi və təkmilləşdirilməsi ilə bağlı Baş idarəyə daxil olmuş təklifləri icmallaşdırmaq, təkliflər əsasında qanunvericiliyə müvafiq dəyişikliklər layihəsi hazırlayaraq aidiyyəti üzrə təqdim etmək;

3.0.13. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq Baş idarənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

3.0.14. Vergi, habelə sığorta qanunvericiliyində və inzibatçılığında vergitutma ilə bağlı birbaşa tənzimlənməyən, habelə ziddiyyətli və aydın olmayan məqamlar yaradan məsələlər üzrə Dövlət Vergi Xidməti adından vahid yanaşmanı və tənzimləmə mexanizmini formalaşdırmaq;

3.0.15. Yerli (bələdiyyə) vergilərin və ödənişlərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi, habelə vergi qanunvericiliyinə riayət edilməsi sahəsində bələdiyyələrə metodiki rəhbərliyi həyata keçirmək;

3.0.16. Vergi və sığorta qanunvericiliyində və strukturların fəaliyyətində aparılan dəyişikliklərə uyğun olaraq, həmçinin vergi inzibatçılığının vergi və sığorta qanunvericiliyinə uyğunlaşdırılması məqsədilə normativ sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

3.0.17. Azərbaycan Respublikasının Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

3.0.18. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının və strateji yol xəritələrində Dövlət Vergi Xidmətinin icraçı kimi müəyyən olunduğu işlərin (tədbirlərin) icmallaşdırılmasını və aidiyyəti üzrə təqdim olunmasını təmin etmək, Dövlət Vergi Xidməti daxilində müvafiq tədbirlər planlarının hazırlanmasını təşkil etmək və icraçı strukturu müəyyən etmək;

3.0.19. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planların və tədbirlər planlarının hazırlanması işini həyata keçirmək, həmin strateji planların və tədbirlər planlarının vahid məlumat bazasını yaratmaq, habelə həmin strateji planların və tədbirlər planlarının Dövlət Vergi Xidmətinin Aparatının struktur bölmələri tərəfindən görülməli olan işlərin icrasına nəzarəti təşkil etmək və həmin struktur bölmələr tərəfindən təqdim olunan hesabatların icmallaşdırılmasını və aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

3.0.20. Vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin səmərəli və effektiv şəkildə həyata keçirilməsini təmin etmək üçün metodologiya hazırlamaq və həmin metodologiya əsasında görülməli olan işlərin icrasının monitorinqini və tədbirlərin icrası bitdikdən sonra ümumi təsir qiymətləndirilməsinin aparılmasını təşkil etmək;

3.0.21. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin icrası prosesində strukturlararası koordinasiyanı və əlaqələndirməni təşkil etmək, tədbirlərin icrası barədə hesabatlar hazırlamaq və Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim etmək;

3.0.22. Müvafiq sahədə vergi siyasətinin formalaşdırılması məqsədilə vergitutma sahəsində qabaqcıl beynəlxalq təcrübələri öyrənərək vergi qanunvericiliyi layihələrinin hazırlanması və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

3.0.23. Xarici ölkələrdə tətbiq edilən yeni mexanizmlərin, vergi növləri və vergi inzibatçılığı (yoxlamanın kameral və səyyar formada aparılması qaydası, vergi borclarının alınması ilə bağlı tədbirlər və s.) ilə bağlı islahatların araşdırılmasını, mövcud qanunvericilik və inzibatçılıq ilə müqayisəsini təşkil etmək;

3.0.24. Mövcud vergi və sığorta qanunvericiliyi sahəsində beynəlxalq təcrübələri və tendensiyaları araşdırmaq və müvafiq icmallar hazırlamaq;

3.0.25. Fiziki şəxslər üzrə vergitutma bazasının genişləndirilməsi, eləcə də onların gəlirlərinin və əmlaklarının tam şəkildə vergiyə cəlb edilməsi, habelə fiziki şəxslərin qeyri-sahibkarlıq fəaliyyətindən, muzdlu işdən əldə edilən gəlirlərindən vergilərin hesablanması mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə xarici ölkələrin vergi və sığorta qanunvericiliyini təhlil etmək;

3.0.26. Vergi və sığorta qanunvericiliyində baş verən dəyişikliklərin effektivliyini müəyyən etmək üçün monitorinqlər həyata keçirmək, dəyişikliklərin aidiyyəti sahənin iqtisadi göstəricilərinə təsirini təhlil etmək;

3.0.27. Vergi və sığorta qanunvericiliyinə təklif olunan dəyişikliklərin vergi daxilolmalarına və sığorta haqları üzrə daxilolmalara təsirini təhlil etmək;

3.0.28. Vergi güzəştlərinin və azadolmalarının iqtisadi effektivliyinin müəyyən olunması üçün monitorinqini aparmaq, onların sayını, məbləğini, dinamikasını və iqtisadi effektini təhlil etmək;

3.0.29. İqtisadi sahədə əhəmiyyətini itirmiş vergi güzəştlərinin və iqtisadi aktivliyini bərpa edən sahələr üzrə verilmiş vergi güzəştlərinin monitorinqini aparmaq və ləğv edilməsi imkanlarını təhlil etmək;

3.0.30. Fəaliyyət sahələri üzrə problemlər və onların aradan qaldırılması ilə bağlı təkliflərin öyrənilməsi məqsədilə sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə görüşlər keçirmək;

3.0.31. Fəaliyyət sahələrinin mövcud vəziyyəti barədə sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə müzakirələr aparmaq və qanunvericiliklə bağlı vahid yanaşmanın təmin edilməsi üçün aidiyyəti struktur tərəfindən bu sektor üzrə maarifləndirmə işlərinin aparılması ilə bağlı tədbirlər görmək;

3.0.32. Qanunvericiliyin tətbiqinin sahibkarlıq subyektlərinin fəaliyyətində yaratdığı müsbət və mənfi halları araşdırmaq, real vəziyyətin təhlilini həyata keçirmək və sahibkarlıq subyektləri ilə müzakirələr zamanı müəyyən olunmuş real problemlərin həllinin qanunvericilikdə nəzərə alınması ilə bağlı tədbirlər görmək;

3.0.33. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

3.0.34. Baş idarədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

3.0.35. Baş idarədə kargüzarlıq işlərinin aparılmasını təmin etmək;

3.0.36. Dövlət Vergi Xidmətinin rəhbərliyinin verdiyi göstəriş və tapşırıqların vaxtında və düzgün formada icrasını təmin etmək;

3.0.37. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və vaxtında aidiyyəti üzrə rəhbərliyə təqdim etmək;

3.0.38. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.0.39. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

3.0.40. Baş idarənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

3.0.41. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrası zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə Dövlət Vergi Xidmətinin rəhbərliyinə müvafiq təkliflər vermək;

3.0.42. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.0.43. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. Baş idarənin hüquqları

4.0. Baş idarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. Vergi siyasəti, vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək və bu sahədə həyata keçirilən tədbirlərdə iştirak etmək;

4.0.2. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğu hazırlamaq və onlardan belə məlumatları (sənədləri) Dövlət Vergi Xidmətinin rəhbərliyi vasitəsilə almaq;

4.0.3. Vergi, habelə sığorta qanunvericiliyində və inzibatçılığında vergitutma ilə bağlı birbaşa tənzimlənməyən, habelə ziddiyyətli və aydın olmayan məqamlar yaradan məsələlər üzrə Dövlət Vergi Xidməti adından formalaşdırılan vahid yanaşmalar və tənzimləmə mexanizmləri barədə vergi ödəyicilərinin məlumatlandırılmasının nəticəsi barədə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından məlumat almaq;

4.0.4. Vergi və sığorta qanunvericiliyinin müddəalarının və vergitutuma ilə bağlı formalaşdırılmış vahid yanaşmanın və tənzimləmə mexanizmlərinin tətbiqinin monitorinqi zamanı vergi inzibatçılığında, habelə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində, o cümlədən vergi hesabatlarının tərtibatı və təqdim edilməsi, kameral vergi yoxlamalarının keçirilməsi prosedurunda, elektron qaimə-fakturaların tərtibi, vergi ödəyicilərinə göndərilən “uyğunsuzluq məktubları”nın məzmununda, vergi ödəyicilərinin hesablarına sərəncamların göndərilməsi və vergitutuma ilə bağlı digər məsələlərdə vergi və sığorta qanunvericiliyinə uyğun olmayan inzibatçılıq və texniki prosedurlar aşkar edildiyi halda, aidiyyəti struktur bölmələrin rəyi öyrənilməklə vergi və sığorta qanunvericiliyinə uyğun olmayan inzibatçılıq prosedurlarının vergi və sığorta qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmasının təmin edilməsi ilə bağlı tədbirlər görmək və nəticəsi barədə Dövlət Vergi Xidmətinin rəhbərliyinə məlumat təqdim etmək;

4.0.5. Müvafiq sahə üzrə hazırlanmış hüquqi akt və məktub layihələrini münasibət bildirilməsi üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına təqdim etmək;

4.0.6. Müvafiq sahəyə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək, o cümlədən hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsinə dair təklifləri Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim etmək;

4.0.7. Vergi və sığorta inzibatçılığının və qanunvericiliyinin təkmilləşdirilməsi məqsədi ilə beynəlxalq təşkilatların texniki yardım alətlərindən istifadə etmək habelə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə beynəlxalq təşkilatlara və digər dövlətlərin aidiyyəti orqanlarına sorğuların göndərilməsi üçün aidiyyəti struktura müraciət etmək;

4.0.8. Dövlət Vergi Xidməti adından formalaşdırılmış vahid yanaşmanın və tənzimləmə mexanizminin Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları tərəfindən funksional vəzifələrinin icrası zamanı nəzərə alınmasının monitorinqini həyata keçirmək və zərurət olduğu halda nəticəsi barədə Dövlət Vergi Xidmətinin rəhbərliyinə məlumat vermək;

4.0.9. Vergi, habelə sığorta qanunvericiliyində və inzibatçılığında vahid yanaşmanın və tənzimləmə mexanizminin formalaşdırılması, habelə vergitutuma və vergi inzibatçılığı ilə bağlı konkret hallar üzrə məsələlərin aydınlaşdırılması, habelə düzgün və ətraflı araşdırılması məqsədilə dövlət orqanları və qurumlarına, fiziki və hüquqi şəxslərə, Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına konkret məsələlər üzrə sorğular vermək və rəylər almaq;

4.0.10. Vergi və sığorta qanunvericiliyində edilmiş dəyişikliklərin izah olunması və formalaşmış vergi siyasəti ilə bağlı Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarının əməkdaşlarının iştirakı ilə təlimlər təşkil etmək;

4.0.11. Vergi və sığorta qanunvericiliyində edilmiş dəyişikliklərin izah olunması və formalaşmış vergi siyasətinin ictimaiyyətə təqdim olunması məqsədilə məlumatlar hazırlamaq

və Dövlət Vergi Xidmətinin aidiyyəti strukturuna təqdim etmək;

4.0.12. Vergi, habelə sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar normativ hüquqi akt layihələrinin hazırlanması prosesində zərurət olduğu halda, vergi sahəsində fəaliyyət göstərən auditor və konsaltinq şirkətlərini cəlb etmək;

4.0.13. Dövlət və qeyri-dövlət təşkilatları tərəfindən vergitutma və iqtisadiyyatın digər sahələri üzrə keçirilən tədbirlər, müzakirələr və forumlarda iştirakla bağlı dəvət olduqda, həmin tədbirlərdə iştirak etmək;

4.0.14. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı sahibkarlıq subyektlərinin iştirakı ilə keçirilən görüşlərdə (brifinqlərdə, konfranslarda), habelə mediada, o cümlədən televiziya və radio verilişlərində iştirak etmək və qanunvericiliklə bağlı izahlar vermək;

4.0.15. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı əlavə zərurət olduqda beynəlxalq təşkilatların, aidiyyəti digər qurumların və özəl sektorun cəlb edilməsi ilə bağlı Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

4.0.16. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına görülmüş işlərlə bağlı zəruri sənədlərin, hesabatların təqdim edilməsi ilə bağlı müraciət etmək;

4.0.17. Baş idarənin səlahiyyətlərinə aid edilən məsələlər üzrə beynəlxalq təcrübəni, vergi, habelə sığorta qanunvericiliyini və inzibatçılığını araşdırmaq, təhlillər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq, rəy və təkliflər (o cümlədən, təqdimatlar) vermək;

4.0.18. Müasir vergitutma trendlərinin və beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə yerli, beynəlxalq və xarici ölkələrdə keçirilən tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək, habelə Baş idarənin səlahiyyətlərinə aid edilən məsələlər üzrə İqtisadiyyat Nazirliyində, Dövlət Vergi Xidmətində və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək;

4.0.19. Vergi, habelə sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi məqsədilə xarici təşkilatların və qurumların mövcud məlumat bazalarından istifadə etmək üçün Dövlət Vergi Xidmətinin rəhbərliyi qarşısında məsələ qaldırmaq, zərurət yarandıqda xarici ekspertlərin dəvət olunması, onlayn görüşlərin keçirilməsi və yazışmaların aparılması üçün aidiyyəti üzrə müraciət etmək;

4.0.20. Baş idarənin səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, uçot-baza məlumatlarından istifadə etməklə təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar və

təqdimatlar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

4.0.21. Fəaliyyət sahələri üzrə sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları (ödəyici) ilə bağlı iş prosesində aşkarlanan problemlər (praktikada tez-tez rast gəlinən ziddiyyətli məqamların, qanunvericilikdə öz həllini tapmayan halların müəyyən edilməsi və s.) barədə, habelə həmin sahənin göstəriciləri barədə məlumatların əldə edilməsi məqsədi ilə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına sorğular vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.22. Zərurət yarandıqda, sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə keçirilən görüşlərə aidiyyəti dövlət qurumlarını cəlb etmək;

4.0.23. Sahibkarlıq subyektləri ilə müzakirələr zamanı müəyyən olunmuş real problemlərin həllini nəzərdə tutan vergi və sığorta qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

4.0.24. Zərurət yarandıqda vergi və sığorta qanunvericiliyinə dair təkliflərin və hazırlanmış qanun layihələrinin sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və iqtisadi fəaliyyət sahələrini təmsil edən vergi ödəyiciləri ilə qarşılıqlı şəkildə müzakirəsini təşkil etmək;

4.0.25. Mövcud vergi siyasəti çərçivəsində sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, digər sahələr üzrə qarşılıqlı birgə əməkdaşlığın genişləndirilməsi ilə bağlı təkliflər vermək;

4.0.26. Sahibkarlıq subyektləri ilə keçirilən görüşlər zamanı Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından nümayəndələr cəlb etmək;

4.0.27. İqtisadiyyat Nazirliyinin qərarları, habelə təşkilati-sərəncamverici sənədlər ilə təsdiq edilmiş tədbirlər planlarında nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından məlumatlar almaq;

4.0.28. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar vergi cinayətlərinin ibtidai araşdırılması, vergi orqanlarının fəaliyyəti üzrə İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurasında və Dövlət Vergi Xidmətinin Aparatının aidiyyəti struktur bölməsində inzibati şikayətlərə baxılması zamanı qarşıya çıxan suallar, problemlər və yol verilən nöqsanlar ilə bağlı aidiyyəti strukturlardan məlumatlar almaq;

4.0.29. Büdcə-vergi siyasəti çərçivəsində hazırlanan, habelə dövlət orqanlarından və qurumlardan daxil olan Vergi Məcəlləsində və sığorta qanunvericiliyində dəyişikliklər edilməsini nəzərdə tutan qanunvericilik layihələrinin hazırlanması və müvafiq rəyin verilməsi zamanı Dövlət Vergi Xidmətinin Aparatının struktur bölmələrindən aşağıdakı məsələlərə dair rəy almaq:

1. vergi güzəşt və azadolmaları ilə bağlı təklif olunan dəyişikliklərin dövlət büdcəsinə təsirinin qiymətləndirilməsinə dair;

2. büdcə proqnozlarının icrası baxımından təklif olunan vergi güzəşt və azadolmalarının məqsədəmüvafiqliyinə dair;

3. təklif olunan dəyişikliklərin vergi orqanlarının funksional fəaliyyətinə təsirinin qiymətləndirilməsinə dair;

4.0.30. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları arasında koordinasiyanın təmin edilməsi və onların fəaliyyətində səmərəliliyin artırılması istiqamətində təkliflər vermək;

4.0.31. Digər struktur bölmələr tərəfindən hazırlanmış normativ-hüquqi aktların, hesabat formalarının və təkliflərin layihələrinə rəy və təkliflər vermək;

4.0.32. Baş idarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

4.0.33. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi orqanlarına tövsiyələr vermək;

4.0.34. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

4.0.35. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

4.0.36. Vergi və sığorta qanunvericiliyinin tətbiqi barədə Baş idarəyə daxil olmuş sorğular araşdırılarkən mövcud qanunvericiliyə və vergi siyasətinə uyğun olmayan hallar aşkar edildikdə həmin nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, habelə aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün göstəriş məktubları hazırlayaraq aidiyyəti üzrə təqdim etmək;

4.0.37. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar vergi orqanlarının vəzifəli şəxslərindən və vergi ödəyicilərindən izahatlar almaq;

4.0.38. Vergi və sığorta qanunvericiliyinin tətbiqi barədə idarəyə daxil olmuş sorğular araşdırılarkən zərurət yarandığı hallarda müraciət edən şəxslərlə telefon əlaqəsinin saxlanılmasını və əlavə araşdırmanın aparılması məqsədilə Dövlət Vergi Xidmətinə dəvət edilməsini həyata keçirmək;

4.0.39. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.0.40. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Baş idarənin fəaliyyətinin təşkili

5.1. Baş idarənin strukturunu və ştat cədvəlini iqtisadiyyat naziri təsdiq edir.

5.2. Baş idarənin strukturuna 3 idarə (Vergi qanunvericiliyi idarəsi, Vergi siyasəti idarəsi və Qanunvericiliyin monitorinqi və sahibkarlıq subyektləri ilə iş idarəsi) daxildir. Vergi qanunvericiliyi idarəsinin tərkibinə 3 şöbə (Qanunvericilik layihələrinin hazırlanması şöbəsi, Dövlət orqanları ilə iş şöbəsi və Vergi qanunvericiliyinin tətbiqi şöbəsi) daxildir. Vergi siyasəti idarəsinin tərkibinə 3 (Beynəlxalq təcrübələrin öyrənilməsi və fiziki şəxslərlə iş şöbəsi, Xarici ölkələrin vergi inzibatçılığının araşdırılması şöbəsi və Strateji planların idarə edilməsi və icrasına nəzarət şöbəsi) daxildir. Qanunvericiliyin monitorinqi və sahibkarlıq subyektləri ilə iş idarəsinin tərkibinə 2 şöbə (Qanunvericilikdəki dəyişikliklərin monitorinqi şöbəsi və Sahibkar birlikləri və assosiasiyaları ilə iş şöbəsi) daxildir.

5.3. Baş idarənin fəaliyyətinə İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Dövlət Vergi Xidmətinin rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Baş idarənin rəisi rəhbərlik edir. Baş idarənin rəisi Baş idarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Baş idarənin rəisinin İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Dövlət Vergi Xidmətinin rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) vardır. Baş idarənin rəisi müavini (müavinləri) vəzifə bölgüsünə, habelə baş idarənin rəisi tərəfindən ona (onlara) həvalə edilmiş vəzifələrə uyğun olaraq fəaliyyət göstərir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.5. Baş idarənin rəisi olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada Baş idarənin rəis müavini (müavinlərindən biri) həyata keçirir.

5.6. Baş idarənin digər vəzifəli şəxsləri Dövlət Vergi Xidmətinin rəisi və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.7. Baş idarənin rəisi:

5.7.1. Baş idarənin fəaliyyətini təşkil edir, ona rəhbərlik edir və Baş idarəni təmsil edir;

5.7.2. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə iş planlarını və digər bu kimi sənədləri təsdiq edir, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin icra edilməsinə nəzarət edir;

5.7.3. Baş idarəyə daxil olan müraciətlərin baxılması işini təşkil edir, habelə daxili sənədlərin imzalanmasını həyata keçirir

5.7.4. Baş idarə rəisinin müavininin (müavinlərinin) vəzifə bölgüsünü aparır və müvafiq fəaliyyət sahələrinin idarə olunmasını ona (onlara) həvalə edir;

5.7.5. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri icra edərkən və hüquqları həyata

keçirərkən zərurət yarandığı hallarda Baş idarənin strukturuna daxil olan bir şöbənin əməkdaşının (əməkdaşlarının) digər şöbələrin işlərinin yerinə yetirilməsinə cəlb edir;

5.7.6. Baş idarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi məqsədilə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından zəruri məlumat və sənədləri əldə edir;

5.7.7. Baş idarə üzrə İqtisadiyyat Nazirliyinin Kollegiyasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim edir;

5.7.8. Tabeliyində olan vəzifəli şəxslər tərəfindən əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edir;

5.7.9. Baş idarənin əməkdaşlarının kadr yerdəyişməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdimatlar verir;

5.7.10. Baş idarənin statistik və digər hesabatlarını Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim edir.

5.8. Baş idarənin rəisi, onun müavini (müavinləri), idarə rəisi və şöbə rəisləri işçi qüvvəsindən səmərəli istifadə edilməsi məqsədilə iş stajı və peşəkarlıq səviyyələrini nəzərə almaqla hər bir əməkdaş üzrə iş bölgüsünü müəyyən edir, onları əlaqələndirir, işlərin həyata keçirilməsini təşkil edir, həmin işlərin effektiv və qanunvericiliyin tələblərinə uyğun şəkildə icrasına nəzarət edir və buna görə bilavasitə cavabdehdirlər.

5.9. Baş idarənin işçiləri bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Baş idarənin strukturuna daxil olan idarə və şöbələrin vəzifə və hüquqları

### 6.1. Vergi qanunvericiliyi idarəsinin vəzifələri aşağıdakılardır:

6.1.1. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının tətbiqi və təkmilləşdirilməsi ilə bağlı vətəndaşlardan, vergi ödəyicilərindən, dövlət orqanları və qurumlarından, yerli özünüidarəetmə orqanlarından, habelə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından daxil olmuş sorğuların (vergi və sığorta qanunvericiliyində birbaşa nəzərdə tutulan və aşkar tənzimlənən məsələlər ilə bağlı cavablandırılması Dövlət Vergi Xidmətinin strukturuna daxil olan qurumları tərəfindən, həmçinin funksional məsələlər üzrə Dövlət Vergi Xidmətinin Aparatının aidiyyəti struktur bölmələri tərəfindən cavablandırılan sorğular istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

6.1.2. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının tətbiqi və təkmilləşdirilməsi ilə

bağlı Baş idarəyə daxil olmuş təklifləri icmallaşdırmaq, təkliflər əsasında qanunvericiliyə müvafiq dəyişikliklər layihəsi hazırlayaraq aidiyyəti üzrə təqdim etmək;

6.1.3. İdarənin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə Dövlət Vergi Xidmətinin rəisi ilə razılaşdırılmaq üçün daxil olmuş hüquqi akt və məktub layihələrinə rəylər hazırlamaq və Baş idarənin rəhbərliyinə təqdim etmək;

6.1.4. Vergi və sığorta qanunvericiliyi sahəsində, habelə iqtisadi sahədə, hazırlanmış hüquqi akt və normativ sənəd layihələrinə rəy və təkliflər bildirmək;

6.1.5. Vergi və sığorta qanunvericiliyinin digər hüquqi aktlara uyğunlaşdırılması istiqamətində təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

6.1.6. Aşağıda qeyd olunanlar nəzərə alınmaqla vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində hüquqi akt layihələri hazırlamaq:

1. orta müddətli dövr üçün nəzərdə tutulmuş vergi siyasətinin əsas strateji hədəfləri;

2. vergi və sığorta qanunvericiliyinin tətbiqi ilə bağlı daxil olmuş sorğular cavablandırılarkən qanunvericilikdə müəyyən olunan ziddiyyətli və aydın olmayan məqamlar;

3. vergi və sığorta qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, digər dövlət müəssisə və təşkilatlarından, hüquqi və fiziki şəxslərdən, habelə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından daxil olan təkliflər;

4. məhkəmə mübahisələri, vergi cinayətlərinin ibtidai araşdırılması, vergi orqanlarının fəaliyyəti üzrə İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurasında və Dövlət Vergi Xidmətinin Aparatının aidiyyəti struktur bölməsində inzibati şikayətlərə baxılması zamanı qarşıya çıxan suallar, problemlər və yol verilən nöqsanlar.

6.1.7. İqtisadiyyatın prioritet hesab edilən sahələrinin stimullaşdırılması məqsədilə mövcud iqtisadi siyasət nəzərə alınmaqla, vergi güzəştlərinin və azadolmaların səmərəliliyi üzrə aparılmış təhlillər əsasında vergi və sığorta qanunvericiliyində dəyişikliklərin edilməsi ilə bağlı təkliflər vermək, tələb olunduqda Dövlət Vergi Xidmətinin aidiyyəti strukturlarının iştirakı ilə təkliflərin müzakirəsini təşkil etmək, məqsədəuyğun hesab edilmiş təklifləri əks etdirən hüquqi akt layihələrini hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

6.1.8. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsinin istiqamətlərini və bu sahədə həyata keçiriləcək digər tədbirləri müəyyən etmək;

6.1.9. Vergi, habelə sığorta qanunvericiliyində və inzibatçılığında vergitutma ilə bağlı birbaşa tənzimlənməyən, habelə ziddiyyətli və aydın olmayan məqamlar yaradan məsələlər üzrə Dövlət Vergi Xidməti adından vahid yanaşmanı və tənzimləmə mexanizmini formalaşdırmaq;

6.1.10. Vergi Məcəlləsinin müddəalarına və formalaşmış vergi siyasətinin tətbiqinə uyğun olaraq müxtəlif fəaliyyət növlərinin və ayrı-ayrı əməliyyatların vergiyə cəlb olunması habelə sığorta qanunvericiliyinin tətbiqi barədə zərurət yarandıqda göstəriş məktublarını hazırlamaq və xidməti istifadə üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına göndərilməsini təmin etmək;

6.1.11. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq Baş idarənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

6.1.12. Yerli (bələdiyyə) vergilərin və ödənişlərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi, habelə vergi qanunvericiliyinə riayət edilməsi sahəsində bələdiyyələrə metodiki rəhbərliyi həyata keçirmək;

6.1.13. Vergi və sığorta qanunvericiliyində və strukturların fəaliyyətində aparılan dəyişikliklərə uyğun olaraq, həmçinin vergi inzibatçılığının vergi və sığorta qanunvericiliyinə uyğunlaşdırılması məqsədilə, normativ sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

6.1.14. Azərbaycan Respublikasının Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.1.15. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.1.16. İdarənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.1.17. Baş idarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.1.18. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.1.19. İdarəyə həvalə edilmiş vəzifələrin icrası zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və həmin şəxslərlə bağlı müvafiq tədbirlərin görülməsi barədə Baş idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

6.1.20. İdarədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.1.21. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.1.22. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və Baş idarənin rəhbərliyinə təqdim etmək;

6.1.23. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.1.24. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.2. Vergi qanunvericiliyi idarəsinin hüquqları aşağıdakılardır:**

6.2.1. İdarənin vəzifələrinə uyğun olaraq hazırlanmış normativ hüquqi akt və məktub layihələrini münasibət bildirilməsi üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına təqdim etmək;

6.2.2. Vergi, habelə sığorta qanunvericiliyində və inzibatçılığında vahid yanaşmanın və tənzimləmə mexanizminin formalaşdırılması, habelə vergitutuma və vergi inzibatçılığı ilə bağlı konkret hallar üzrə məsələlərin aydınlaşdırılması, habelə düzgün və ətraflı araşdırılması məqsədilə dövlət orqanları və qurumlarına, fiziki və hüquqi şəxslərə, Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına konkret məsələlər üzrə sorğular vermək və rəylər almaq;

6.2.3. Vergi, habelə sığorta qanunvericiliyində və inzibatçılığında vergitutma ilə bağlı birbaşa tənzimlənməyən, habelə ziddiyyətli və aydın olmayan məqamlar yaradan məsələlər üzrə Dövlət Vergi Xidməti adından formalaşdırılan vahid yanaşmalar və tənzimləmə mexanizmləri barədə vergi ödəyicilərinin məlumatlandırılmasının nəticəsi barədə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından məlumat almaq;

6.2.4. Vergi, habelə sığorta qanunvericiliyinin müddəalarının və vergitutuma ilə bağlı formalaşdırılmış vahid yanaşmanın və tənzimləmə mexanizmlərinin tətbiqinin monitorinqi zamanı vergi inzibatçılığında, habelə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində, o cümlədən vergi hesabatlarının tərtibatı və təqdim edilməsi, kameral vergi yoxlamalarının keçirilməsi prosedurunda, elektron qaimə-fakturaların tərtibi, vergi ödəyicilərinə göndərilən "uyğunsuzluq məktubları"nın məzmununda, vergi ödəyicilərinin hesablarına sərəncamların göndərilməsi və vergitutuma ilə bağlı digər məsələlərdə vergi, habelə sığorta qanunvericiliyinə uyğun olmayan inzibatçılıq və texniki prosedurlar aşkar edildiyi halda, aidiyyəti struktur bölmələrin rəyi öyrənilməklə vergi, habelə sığorta qanunvericiliyinə uyğun olmayan inzibatçılıq prosedurlarının vergi, habelə sığorta qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmasının təmin edilməsi ilə bağlı tədbirlər görmək və nəticəsi barədə Baş idarənin rəhbərliyinə məlumat təqdim etmək;

6.2.5. Vergi və sığorta qanunvericiliyinə dair normativ hüquqi akt layihəsinin hazırlanması

məqsədləri üçün beynəlxalq təcrübənin öyrənilməsi zərurəti yarandıqda, müvafiq beynəlxalq təcrübə barədə arayışın təqdim edilməsi məqsədilə Baş idarənin aidiyyəti idarəsinə müraciət etmək üçün İdarənin rəhbərliyinə təklif vermək;

6.2.6. Vergi və sığorta qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.2.7. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları tərəfindən vergi və sığorta qanunvericiliyi ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək;

6.2.8. Vergi və sığorta qanunvericiliyində edilmiş dəyişikliklərin izah olunması və formalaşmış vergi siyasəti ilə bağlı Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarının əməkdaşlarının iştirakı ilə təlimlər təşkil etmək;

6.2.9. Vergi və sığorta qanunvericiliyində edilmiş dəyişikliklərin izah olunması və formalaşmış vergi siyasətinin ictimaiyyətə təqdim olunması məqsədilə məlumatlar hazırlamaq və Dövlət Vergi Xidmətinin aidiyyəti strukturuna təqdim etmək;

6.2.10. Dövlət Vergi Xidmətinin adından formalaşdırılmış vahid yanaşmanın və tənzimləmə mexanizminin Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları tərəfindən funksional vəzifələrinin icrası zamanı nəzərə alınmasının monitorinqini həyata keçirmək və zərurət olduğu halda nəticəsi barədə Baş idarənin rəhbərliyinə məlumat vermək;

6.2.11. Dövlət və qeyri-dövlət təşkilatları tərəfindən vergitutma və iqtisadiyyatın digər sahələri üzrə keçirilən tədbirlər, müzakirələr və forumlarda iştirakla bağlı dəvət olduqda, həmin tədbirlərdə iştirak etmək;

6.2.12. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı sahibkarlıq subyektlərinin iştirakı ilə keçirilən görüşlərdə (brifinqlərdə, konfranslarda), habelə mediada, o cümlədən televiziya və radio verilişlərində iştirak etmək və dəyişikliklərlə bağlı izahlar vermək;

6.2.13. İdarəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.2.14. Vergi və sığorta qanunvericiliyinin tətbiqi barədə idarəyə daxil olmuş sorğular araşdırılarkən zərurət yarandığı hallarda müraciət edən şəxslərlə telefon əlaqəsinin saxlanılmasını və əlavə araşdırmanın aparılması məqsədilə Dövlət Vergi Xidmətinə dəvət edilməsini həyata keçirmək;

6.2.15. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar vergi cinayətlərinin ibtidai araşdırılması, vergi orqanlarının fəaliyyəti üzrə İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurasında və Dövlət Vergi Xidmətinin Aparatının aidiyyəti struktur bölməsində inzibati şikayətlərə baxılması zamanı qarşıya çıxan suallar, problemlər və yol verilən nöqsanlar ilə bağlı aidiyyəti strukturlardan məlumatlar almaq;

6.2.16. Büdcə-vergi siyasəti çərçivəsində hazırlanan, habelə dövlət orqanlarından və qurumlardan daxil olan Vergi Məcəlləsində və sığorta qanunvericiliyində dəyişikliklər edilməsini nəzərdə tutan qanunvericilik layihələrinin hazırlanması və müvafiq rəyin verilməsi zamanı Dövlət Vergi Xidmətinin Aparatının struktur bölmələrindən aşağıdakı məsələlərə dair rəy almaq;

1) vergi güzəşt və azadolmaları ilə bağlı təklif olunan dəyişikliklərin dövlət büdcəsinə təsirinin qiymətləndirilməsinə dair;

2) büdcə proqnozlarının icrası baxımından təklif olunan vergi güzəşt və azadolmalarının məqsədəmüvafiqliyinə dair;

3) təklif olunan dəyişikliklərin vergi orqanlarının funksional fəaliyyətinə təsirinin qiymətləndirilməsinə dair;

6.2.17. Vergi, habelə sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar normativ hüquqi akt layihələrinin hazırlanması prosesində zərurət olduğu halda, vergi sahəsində fəaliyyət göstərən auditor və konsaltinq şirkətlərini cəlb etmək;

6.2.18. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

6.2.19. Müvafiq sahəyə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək, o cümlədən hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsinə dair təkliflər vermək;

6.2.20. Görülmüş işlərin işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

6.2.21. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, təhlil və ümumiləşdirmələr, həmçinin təqdimatlar hazırlamaq və aidiyyəti üzrə təkliflər vermək;

6.2.22. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının tətbiqi barədə idarəyə daxil olmuş sorğular araşdırılarkən mövcud qanunverciliyə və vergi siyasətinə uyğun olmayan hallar aşkar edildikdə həmin nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, habelə aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün göstəriş məktubları hazırlayaraq aidiyyəti üzrə təqdim etmək;

6.2.23. İdarəyə həvalə edilmiş vəzifələrin icrası ilə bağlı İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək, habelə idarənin fəaliyyətinə aid olan istiqamətlərdə keçirilən yerli və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

6.2.24. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.2.25. İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.2.26. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.2.27. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.3. Qanunvericilik layihələrinin hazırlanması şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.3.1. vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı vətəndaşlardan, vergi ödəyicilərindən, dövlət orqanları və qurumlarından, yerli özünüidarəetmə orqanlarından, habelə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından daxil olmuş təkliflərin qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını təmin etmək və həmin təklifləri icmallaşdırmaq;

6.3.2. vergi və sığorta qanunvericiliyinin, habelə inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları tərəfindən hazırlanmış normativ hüquqi akt və normativ sənəd layihələrinə rəy və təkliflər bildirmək;

6.3.3. Vergi və sığorta qanunvericiliyinin digər hüquqi aktlara uyğunlaşdırılması istiqamətində təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

6.3.4. Aşağıda qeyd olunanlar nəzərə alınmaqla vergi və sığorta qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində hüquqi akt layihələri hazırlamaq:

1. orta müddətli dövr üçün nəzərdə tutulmuş vergi siyasətinin əsas strateji hədəfləri;
2. vergi və sığorta qanunvericiliyinin tətbiqi ilə bağlı daxil olmuş sorğular cavablandırılarkən qanunvericilikdə müəyyən olunan ziddiyyətli və aydın olmayan məqamlar;
3. vergi və sığorta qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, digər dövlət müəssisə və təşkilatlarından, hüquqi və fiziki şəxslərdən, habelə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından daxil olan təkliflər;
4. məhkəmə mübahisələri, vergi cinayətlərinin ibtidai araşdırılması, vergi orqanlarının fəaliyyəti üzrə İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurasında və Dövlət Vergi Xidmətinin Aparatının aidiyyəti struktur bölməsində inzibati şikayətlərə baxılması zamanı qarşıya çıxan suallar, problemlər və yol verilən nöqsanlar.

6.3.5. İqtisadiyyatın prioritet hesab edilən sahələrinin stimullaşdırılması məqsədilə

mövcud iqtisadi siyasət nəzərə alınmaqla, vergi güzəştlərinin və azadolmaların səmərəliliyi üzrə aparılmış təhlillər əsasında vergi və sığorta qanunvericiliyində dəyişikliklərin edilməsi ilə bağlı təkliflər vermək, tələb olunduqda Dövlət Vergi Xidmətinin aidiyyəti strukturların iştirakı ilə təkliflərin müzakirəsini təşkil etmək, məqsədəuyğun hesab edilmiş təklifləri əks etdirən hüquqi akt layihələrini hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

6.3.6. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsinin istiqamətlərini və bu sahədə həyata keçiriləcək digər tədbirləri müəyyən etmək;

6.3.7. Vergi və sığorta qanunvericiliyində və strukturların fəaliyyətində aparılan dəyişikliklərə uyğun olaraq, həmçinin vergi inzibatçılığının vergi və sığorta qanunvericiliyinə uyğunlaşdırılması məqsədilə normativ sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

6.3.8. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq Baş idarənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

6.3.9. Azərbaycan Respublikasının Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.3.10. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.3.11. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.3.12. İdarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.3.13. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.3.14. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.3.15. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.3.16. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və İdarənin rəhbərliyinə təqdim etmək;

6.3.17. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.3.18. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.4. Qanunvericilik layihələrinin hazırlanması şöbəsinin hüquqları aşağıdakılardır:**

6.4.1. Şöbənin vəzifələrinə uyğun olaraq hazırlanmış normativ hüquqi akt və məktub layihələrini münasibət bildirilməsi üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına təqdim etmək;

6.4.2. Vergi və sığorta qanunvericiliyinə dair normativ hüquqi akt layihəsinin hazırlanması məqsədləri üçün beynəlxalq təcrübənin öyrənilməsi zərurəti yarandıqda, müvafiq beynəlxalq təcrübə barədə arayışın təqdim edilməsi məqsədilə Baş idarənin aidiyyəti idarəsinə müraciət etmək üçün İdarənin rəhbərliyinə təklif vermək;

6.4.3. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.4.4. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları tərəfindən vergi və sığorta qanunvericiliyi ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək;

6.4.5. Vergi və sığorta qanunvericiliyində edilmiş dəyişikliklərin izah olunması və formalaşmış vergi siyasətinin ictimaiyyətə təqdim olunması məqsədilə məlumatlar hazırlamaq və Dövlət Vergi Xidmətinin aidiyyəti strukturuna təqdim etmək;

6.4.6. Dövlət və qeyri-dövlət təşkilatları tərəfindən vergitutma və iqtisadiyyatın digər sahələri üzrə keçirilən tədbirlər, müzakirələr və forumlarda iştirakla bağlı dəvət olduqda, həmin tədbirlərdə iştirak etmək;

6.4.7. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar vergi cinayətlərinin ibtidai araşdırılması, vergi orqanlarının fəaliyyəti üzrə İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurasında və Dövlət Vergi Xidmətinin Aparatının aidiyyəti struktur bölməsində inzibati şikayətlərə baxılması zamanı qarşıya çıxan suallar, problemlər və yol verilən nöqsanlar ilə bağlı aidiyyəti strukturlardan məlumatlar almaq;

6.4.8. Büdcə-vergi siyasəti çərçivəsində hazırlanan Vergi Məcəlləsində və sığorta qanunvericiliyində dəyişikliklər edilməsini nəzərdə tutan qanunvericilik layihələrinin hazırlanması zamanı Dövlət Vergi Xidmətinin Aparatının struktur bölmələrindən aşağıdakı məsələlərə dair rəy almaq;

1) vergi güzəşt və azadolmaları ilə bağlı təklif olunan dəyişikliklərin dövlət büdcəsinə təsirinin qiymətləndirilməsinə dair;

2) büdcə proqnozlarının icrası baxımından təklif olunan vergi güzəşt və azadolmalarının məqsədəmüvafiqliyinə dair;

3) təklif olunan dəyişikliklərin vergi orqanlarının funksional fəaliyyətinə təsirinin qiymətləndirilməsinə dair;

6.4.9. Vergi, habelə sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə

əlaqədar normativ hüquqi akt layihələrinin hazırlanması prosesində zərurət olduğu halda, vergi sahəsində fəaliyyət göstərən auditor və konsaltinq şirkətlərini cəlb etmək;

6.4.10. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.4.11. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

6.4.12. Müvafiq sahəyə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək, o cümlədən hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsinə dair Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.4.13. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.4.14. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək, habelə Şöbənin fəaliyyətinə aid olan istiqamətlərdə keçirilən yerli və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

6.4.15. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, təhlil və ümumiləşdirmələr, təqdimatlar hazırlamaq və aidiyyəti üzrə təkliflər vermək;

6.4.16. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı sahibkarlıq subyektlərinin iştirakı ilə keçirilən görüşlərdə (brifinqlərdə, konfranslarda), habelə mediada, o cümlədən televiziya və radio verilişlərində iştirak etmək və dəyişikliklərlə bağlı izahlar vermək;

6.4.17. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.4.18. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.4.19. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.5. Dövlət orqanları ilə iş şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.5.1. Şöbənin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə Dövlət Vergi Xidmətinin rəisi ilə razılaşdırılmaq üçün daxil olmuş hüquqi akt və məktub layihələrinə rəylər hazırlamaq və idarənin rəhbərliyinə təqdim etmək;

6.5.2. Dövlət orqanlarından (qurumlarından), o cümlədən İqtisadiyyat Nazirliyinin

Aparatı və strukturuna daxil olan qurumlardan daxil olmuş vergi və sığorta qanunvericiliyi sahəsində və iqtisadi sahədə hüquqi akt layihələrinə, eləcə də vergi və sığorta qanunvericiliyinin digər hüquqi aktlara uyğunlaşdırılması istiqamətində hazırlanmış hüquqi akt layihələrinə rəy və təkliflər bildirmək;

6.5.3. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.5.4. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.5.5. İdarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.5.6. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.5.7. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.5.8. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.5.9. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və İdarənin rəhbərliyinə təqdim etmək;

6.5.10. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.5.11. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.6. Dövlət orqanları ilə iş şöbəsinin hüquqları aşağıdakılardır:**

6.6.1. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.6.2. Vergi və sığorta qanunvericiliyində edilmiş dəyişikliklərin izah olunması və formalaşmış vergi siyasətinin ictimaiyyətə təqdim olunması məqsədilə məlumatlar hazırlamaq və Dövlət Vergi Xidmətinin aidiyyəti strukturuna təqdim etmək;

6.6.3. Dövlət və qeyri-dövlət təşkilatları tərəfindən vergitutma və iqtisadiyyatın digər sahələri üzrə keçirilən tədbirlər, müzakirələr və forumlarda iştirakla bağlı dəvət olduqda, həmin tədbirlərdə iştirak etmək;

6.6.4. Dövlət orqanlarından (qurumlardan), o cümlədən İqtisadiyyat Nazirliyinin Aparatı və strukturuna daxil olan qurumlardan daxil olan Vergi Məcəlləsində və sığorta qanunvericiliyində dəyişikliklər edilməsini nəzərdə tutan qanunvericilik layihələrinə rəyin verilməsi zamanı Dövlət Vergi Xidmətinin Aparatının struktur bölmələrindən aşağıdakı məsələlərə dair rəy almaq;

1) vergi güzəşt və azadolmaları ilə bağlı təklif olunan dəyişikliklərin dövlət büdcəsinə təsirinin qiymətləndirilməsinə dair;

2) büdcə proqnozlarının icrası baxımından təklif olunan vergi güzəşt və azadolmalarının məqsədəmüvafiqliyinə dair;

3) təklif olunan dəyişikliklərin vergi orqanlarının funksional fəaliyyətinə təsirinin qiymətləndirilməsinə dair;

6.6.5. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar Nazirliyin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.6.6. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

6.6.7. Müvafiq sahəyə aid olan hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsinə dair Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.6.8. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.6.9. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək, habelə Şöbənin fəaliyyətinə aid olan istiqamətlərdə keçirilən yerli və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

6.6.10. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, təhlil və ümumiləşdirmələr, təqdimatlar hazırlamaq və aidiyyəti üzrə təkliflər vermək;

6.6.11. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı sahibkarlıq subyektlərinin iştirakı ilə keçirilən görüşlərdə (brifinqlərdə, konfranslarda), habelə mediada, o cümlədən televiziya və radio verilişlərində iştirak etmək və dəyişikliklərlə bağlı izahlar vermək;

6.6.12. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.6.13. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.6.14. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.7. Vergi qanunvericiliyinin tətbiqi şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.7.1. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının tətbiqi ilə bağlı vətəndaşlardan, vergi ödəyicilərindən, dövlət orqanları və qurumlarından, yerli özünüidarəetmə

orqanlarından, habelə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından daxil olmuş sorğuların (vergi və sığorta qanunvericiliyində birbaşa nəzərdə tutulan və aşkar tənzimlənən məsələlər ilə bağlı cavablandırılması Dövlət Vergi Xidmətinin strukturuna daxil olan qurumları tərəfindən, həmçinin funksional məsələlər üzrə Dövlət Vergi Xidmətinin Aparatının aidiyyəti struktur bölmələri tərəfindən cavablandırılan sorğular istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

6.7.2. Vergi və sığorta qanunvericiliyinin tətbiqi barədə Baş idarəyə daxil olmuş sorğuların araşdırılması zamanı müəyyən olunmuş qanunvericiliyin ziddiyyətli və aydın olmayan məqamlarını icmallaşdırmaq, onların aradan qaldırılması ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin aparılması məqsədilə aidiyyəti üzrə təqdim etmək;

6.7.3. Vergi Məcəlləsinin müddəalarına və formalaşmış vergi siyasətinin tətbiqinə uyğun olaraq müxtəlif fəaliyyət növlərinin və ayrı-ayrı əməliyyatların vergiyə cəlb olunması habelə sığorta qanunvericiliyinin tətbiqi barədə zərurət yarandıqda göstəriş məktublarını hazırlamaq və xidməti istifadə üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına göndərilməsini təmin etmək;

6.7.4. Vergi, habelə sığorta qanunvericiliyində və inzibatçılığında vergitutma ilə bağlı birbaşa tənzimlənməyən, habelə ziddiyyətli və aydın olmayan məqamlar yaradan məsələlər üzrə Dövlət Vergi Xidməti adından vahid yanaşmanı və tənzimləmə mexanizmini formalaşdırmaq;

6.7.5. Yerli (bələdiyyə) vergilərin və ödənişlərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi, habelə vergi qanunvericiliyinə riayət edilməsi sahəsində bələdiyyələrə metodiki rəhbərliyi həyata keçirmək;

6.7.6. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.7.7. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.7.8. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.7.9. İdarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.7.10. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz

səlahiyyətləri daxilində iştirak etmək;

6.7.11. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.7.12. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.7.13. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və İdarənin rəhbərliyinə təqdim etmək;

6.7.14. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə İdarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

6.7.15. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.7.16. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.8. Vergi qanunvericiliyinin tətbiqi şöbəsinin hüquqları aşağıdakılardır:**

6.8.1. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.8.2. Dövlət Vergi Xidməti adından formalaşdırılmış vahid yanaşmanın və tənzimləmə mexanizminin Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları tərəfindən funksional vəzifələrinin icrası zamanı nəzərə alınmasının monitorinqini həyata keçirmək və zərurət olduğu halda nəticəsi barədə aidiyyəti üzrə məlumat vermək;

6.8.3. Vergi, habelə sığorta qanunvericiliyində və inzibatçılığında vahid yanaşmanın və tənzimləmə mexanizminin formalaşdırılması, habelə vergitutuma və vergi inzibatçılığı ilə bağlı konkret hallar üzrə məsələlərin aydınlaşdırılması, habelə düzgün və ətraflı araşdırılması məqsədilə dövlət orqanları və qurumlarına, fiziki və hüquqi şəxslərə, Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına konkret məsələlər üzrə sorğular vermək və rəylər almaq;

6.8.4. Vergi və sığorta qanunvericiliyinin tətbiqi barədə şöbəyə daxil olmuş sorğular araşdırılarkən zərurət yarandığı hallarda müraciət edən şəxslərlə telefon əlaqəsinin saxlanılmasını və əlavə araşdırmanın aparılması məqsədilə Dövlət Vergi Xidmətinə dəvət edilməsini həyata keçirmək;

6.8.5. Vergi, habelə sığorta qanunvericiliyinin müddəalarının və vergitutuma ilə bağlı formalaşdırılmış vahid yanaşmanın və tənzimləmə mexanizmlərinin tətbiqinin monitorinqi

zamanı vergi inzibatçılığında, habelə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində, o cümlədən vergi hesabatlarının tərtibatı və təqdim edilməsi, kameral vergi yoxlamalarının keçirilməsi prosedurunda, elektron qaimə-fakturaların tərtibi, vergi ödəyicilərinə göndərilən "uyğunsuzluq məktubları"nın məzmununda, vergi ödəyicilərinin hesablarına sərəncamların göndərilməsi və vergitutuma ilə bağlı digər məsələlərdə vergi, habelə sığorta qanunvericiliyinə uyğun olmayan inzibatçılıq və texniki prosedurlar aşkar edildiyi halda, aidiyyəti struktur bölmələrin rəyi öyrənilməklə vergi, habelə sığorta qanunvericiliyinə uyğun olmayan inzibatçılıq prosedurlarının vergi, habelə sığorta qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmasının təmin edilməsi ilə bağlı tədbirlər görmək və nəticəsi barədə aidiyyəti üzrə məlumat təqdim etmək;

6.8.6. Vergi, habelə sığorta qanunvericiliyində və inzibatçılığında vergitutma ilə bağlı birbaşa tənzimlənməyən, habelə ziddiyyətli və aydın olmayan məqamlar yaradan məsələlər üzrə Dövlət Vergi Xidməti adından formalaşdırılan vahid yanaşmalar və tənzimləmə mexanizmləri barədə vergi ödəyicilərinin məlumatlandırılmasının nəticəsi barədə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından məlumat almaq;

6.8.7. Vergi və sığorta qanunvericiliyində edilmiş dəyişikliklərin izah olunması və formalaşmış vergi siyasəti ilə bağlı Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarının əməkdaşlarının iştirakı ilə təlimlər təşkil etmək;

6.8.8. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

6.8.9. Müvafiq sahəyə aid olan qanunvericilik aktlarının hazırlanmasında iştirak etmək, o cümlədən hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsinə dair Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.8.10. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.8.11. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək, habelə Şöbənin fəaliyyətinə aid olan istiqamətlərdə keçirilən yerli və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

6.8.12. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.8.13. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, təhlil və ümumiləşdirmələr, həmçinin təqdimatlar hazırlamaq və aidiyyəti üzrə təkliflər vermək;

6.8.14. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı sahibkarlıq subyektlərinin iştirakı ilə keçirilən görüşlərdə (brifinqlərdə, konfranslarda), habelə mediada, o cümlədən televiziya və

radio verilişlərində iştirak etmək və dəyişikliklərlə bağlı izahlar vermək;

6.8.15. Vergi və sığorta qanunvericiliyinin və inzibatçılığının tətbiqi barədə şöbəyə daxil olmuş sorğular araşdırılarkən mövcud qanunverciliyə və vergi siyasətinə uyğun olmayan hallar aşkar edildikdə həmin nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, habelə aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün göstəriş məktubları hazırlayaraq aidiyyəti üzrə təqdim etmək;

6.8.16. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.8.17. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.9. Vergi siyasəti idarəsinin vəzifələri aşağıdakılardır:**

6.9.1. Azərbaycan Respublikasının Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.9.2. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının və strateji yol xəritələrində Dövlət Vergi Xidmətinin icraçı kimi müəyyən olunduğu işlərin (tədbirlərin) icmallaşdırılmasını və aidiyyəti üzrə təqdim edilməsini təmin etmək, Dövlət Vergi Xidməti daxilində müvafiq tədbirlər planlarının hazırlanmasını təşkil etmək və icraçı strukturu müəyyən etmək;

6.9.3. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planların və tədbirlər planlarının hazırlanması işini həyata keçirmək, həmin strateji planların və tədbirlər planlarının vahid məlumat bazasını yaratmaq, habelə həmin strateji planların və tədbirlər planlarının Dövlət Vergi Xidmətinin Aparatının struktur bölmələri tərəfindən görülməli olan işlərin icrasına nəzarəti təşkil etmək və həmin struktur bölmələr tərəfindən təqdim olunan hesabatların icmallaşdırılmasını və aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.9.4. Vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin səmərəli və effektiv şəkildə həyata keçirilməsini təmin etmək üçün metodologiya hazırlamaq və həmin metodologiya əsasında görülməli olan işlərin icrasının monitorinqini və tədbirlərin icrası bitdikdən sonra ümumi təsir qiymətləndirilməsinin aparılmasını təşkil etmək;

6.9.5. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin icrası prosesində strukturlararası koordinasiyanı və əlaqələndirməni təşkil etmək, tədbirlərin icrası barədə hesabatlar hazırlamaq və baş idarə rəisinə təqdim etmək;

6.9.6. Müvafiq sahədə vergi siyasətinin formalaşdırılması məqsədilə vergitutma sahəsində qabaqcıl beynəlxalq təcrübələri öyrənərək vergi, habelə sığorta qanunvericiliyi layihələrinin hazırlanması və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

6.9.7. Xarici ölkələrdə tətbiq edilən yeni mexanizmlərin, vergi növləri və vergi inzibatçılığı (yoxlamanın kameral və səyyar formada aparılması qaydası, vergi borclarının alınması ilə bağlı tədbirlər və s.) ilə bağlı islahatların araşdırılmasını, mövcud qanunvericilik və inzibatçılıq ilə müqayisəsini təşkil etmək;

6.9.8. Mövcud vergi və sığorta qanunvericiliyi sahəsində beynəlxalq təcrübələri və tendensiyaları araşdırmaq və müvafiq icmallar hazırlamaq;

6.9.9. Fiziki şəxslər üzrə vergitutma bazasının genişləndirilməsi, eləcə də onların gəlirlərinin və əmlaklarının tam şəkildə vergiyə cəlb edilməsi, habelə fiziki şəxslərin qeyri-sahibkarlıq fəaliyyətindən, muzdlu işdən əldə edilən gəlirlərindən vergilərin hesablanması mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə xarici ölkələrin vergi, habelə sığorta qanunvericiliyini təhlil etmək;

6.9.10. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.9.11. İdarənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə idarəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

6.9.12. Baş idarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.9.13. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.9.14. İdarədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.9.15. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.9.16. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında idarənin səlahiyyətlərinə aid edilmiş

məsələlər üzrə iştirak etmək, habelə İdarənin fəaliyyətinə aid olan istiqamətlərdə keçirilən yerli və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

6.9.17. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və Baş idarənin rəhbərliyinə təqdim etmək;

6.9.18. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.9.19. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.10. Vergi siyasəti idarəsinin hüquqları aşağıdakılardır:**

6.10.1. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.10.2. Vergi və sığorta inzibatçılığının və qanunvericiliyinin təkmilləşdirilməsi məqsədi ilə beynəlxalq təşkilatların texniki yardım alətlərindən istifadə etmək habelə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə beynəlxalq təşkilatlara və digər dövlətlərin aidiyyəti orqanlarına sorğuların göndərilməsi üçün aidiyyəti struktura müraciət etmək;

6.10.3. İdarənin vəzifələrinə uyğun olaraq hazırlanmış sənədlərə münasibət bildirilməsi üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına təqdim etmək;

6.10.4. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları arasında koordinasiyanın təmin edilməsi və onların fəaliyyətində səmərəliliyin artırılması istiqamətində təkliflər vermək;

6.10.5. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

6.10.6. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı əlavə zərurət olduqda beynəlxalq təşkilatların, aidiyyəti digər qurumların və özəl sektorun cəlb edilməsi ilə bağlı baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.10.7. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına görülmüş işlərlə bağlı zəruri sənədlərin, hesabatların təqdim edilməsi ilə bağlı müraciət etmək;

6.10.8. Baş idarənin səlahiyyətlərinə aid edilən məsələlər üzrə beynəlxalq təcrübəni,

vergi, habelə sığorta qanunvericiliyini və inzibatçılığını araşdırmaq, təhlillər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq, rəy və təkliflər (o cümlədən, təqdimatlar) vermək;

6.10.9. Müasir vergitutma trendlərinin və beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə yerli, beynəlxalq və xarici ölkələrdə keçirilən tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək, Baş idarənin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə İqtisadiyyat Nazirliyində, Dövlət Vergi Xidmətində və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək;

6.10.10. Vergi, habelə sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi məqsədilə xarici təşkilatların və qurumların mövcud məlumat bazalarından istifadə etmək üçün baş idarənin rəhbərliyi qarşısında məsələ qaldırmaq, zərurət yarandıqda xarici ekspertlərin dəvət olunması, onlayn görüşlərin keçirilməsi və yazışmaların aparılması üçün aidiyyəti üzrə müraciət etmək;

6.10.11. Görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

6.10.12. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, təhlil və ümumiləşdirmələr, həmçinin tədqiqatlar aparmaq, analitik materiallar və təqdimatlar hazırlamaq və aidiyyəti üzrə təkliflər vermək;

6.10.13. İdarəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

6.10.14. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.10.15. İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.10.16. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.10.17. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.11. Strateji planların idarə edilməsi və icrasına nəzarət şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.11.1. Azərbaycan Respublikasının Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər

planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.11.2. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının və strateji yol xəritələrində Dövlət Vergi Xidmətinin icraçı kimi müəyyən olunduğu işlərin (tədbirlərin) icmallaşdırılmasını və aidiyyəti üzrə təqdim olunmasını təmin etmək, Dövlət Vergi Xidməti daxilində müvafiq tədbirlər planlarının hazırlanmasını təşkil etmək və icraçı strukturu müəyyən etmək;

6.11.3. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planların və tədbirlər planlarının hazırlanması işini həyata keçirmək, həmin strateji planların və tədbirlər planlarının vahid məlumat bazasını yaratmaq, habelə həmin strateji planların və tədbirlər planlarının funksional struktur bölmələr tərəfindən görülməli olan işlərin icrasına nəzarəti təşkil etmək və funksional struktur bölmələr tərəfindən təqdim olunan hesabatların icmallaşdırılmasını və aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.11.4. Vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin səmərəli və effektiv şəkildə həyata keçirilməsini təmin etmək üçün metodologiya hazırlamaq və həmin metodologiya əsasında görülməli olan işlərin icrasının monitorinqini və tədbirlərin icrası bitdikdən sonra ümumi təsir qiymətləndirilməsinin aparılmasını təşkil etmək;

6.11.5. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin icrası prosesində strukturlararası koordinasiyanı və əlaqələndirməni təşkil etmək, tədbirlərin icrası barədə hesabatlar hazırlamaq və idarə rəisinə təqdim etmək;

6.11.6. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.11.7. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə şöbəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

6.11.8. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.11.9. İdarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.11.10. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.11.11. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.11.12. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.11.13. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və İdarənin rəhbərliyinə təqdim etmək;

6.11.14. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.11.15. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.12. Strateji planların idarə edilməsi və icrasına nəzarət şöbəsinin hüquqları aşağıdakılardır:**

6.12.1. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.12.2. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı əlavə zərurət olduqda beynəlxalq təşkilatların, aidiyyəti digər qurumların və özəl sektorun cəlb edilməsi ilə bağlı idarənin rəhbərliyinə təkliflər vermək;

6.12.3. Şöbənin vəzifələrinə uyğun olaraq hazırlanmış sənədləri münasibət bildirilməsi üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına təqdim etmək;

6.12.4. Vergi sisteminin inkişafı ilə bağlı, habelə vergi siyasətinin ortamüddətli dövr üçün nəzərdə tutulmuş hədəflərinin icrasından irəli gələrək strateji planlarda və tədbirlər planlarında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına görülmüş işlərlə bağlı zəruri sənədlərin, hesabatların təqdim edilməsi ilə bağlı müraciət etmək;

6.12.5. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları arasında koordinasiyanın təmin edilməsi və onların fəaliyyətində səmərəliliyin artırılması istiqamətində təkliflər vermək;

6.12.6. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

6.12.7. Görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

6.12.8. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, təhlil və ümumiləşdirmələr, həmçinin tədqiqatlar aparmaq, analitik materiallar və təqdimatlar hazırlamaq və aidiyyəti üzrə təkliflər vermək;

6.12.9. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

6.12.10. Müasir vergitutma trendlərinin öyrənilməsi məqsədilə İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Şöbənin fəaliyyətinə aid olan istiqamətlərdə keçirilən yerli və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

6.12.11. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.12.12. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.12.13. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.12.14. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.13. Beynəlxalq təcrübələrin öyrənilməsi və fiziki şəxslərlə iş şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.13.1. Müvafiq sahədə vergi siyasətinin formalaşdırılması məqsədilə vergitutma sahəsində qabaqcıl beynəlxalq təcrübələri öyrənərək vergi, habelə sığorta qanunvericiliyi layihələrinin hazırlanması və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

6.13.2. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə müvafiq sahədə daxil olmuş vergi, habelə sığorta qanunvericiliyi ilə bağlı sorğulara və digər müraciətlərə mövcud vergi siyasəti çərçivəsində qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

6.13.3. Fiziki şəxslər üzrə vergitutma bazasının genişləndirilməsi, eləcə də onların gəlirlərinin və əmlaklarının tam şəkildə vergiyə cəlb edilməsi, habelə fiziki şəxslərin qeyri-sahibkarlıq fəaliyyətindən, muzdlu işdən əldə edilən gəlirlərindən vergilərin hesablanması mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə xarici ölkələrin vergi, habelə sığorta

qanunvericiliyini təhlil etmək;

6.13.4. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.13.5. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.13.6. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.13.7. İdarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.13.8. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.13.9. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.13.10. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.13.11. Mövcud vergi və sığorta qanunvericiliyi sahəsində beynəlxalq təcrübələri və tendensiyaları araşdırmaq və müvafiq icmallar hazırlamaq;

6.13.12. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və İdarənin rəhbərliyinə təqdim etmək;

6.13.13. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.13.14. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.14. Beynəlxalq təcrübələrin öyrənilməsi və fiziki şəxslərlə iş şöbəsinin hüquqları aşağıdakılardır:**

6.14.1. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.14.2. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.14.3. Baş idarənin səlahiyyətlərinə aid edilən məsələlər üzrə beynəlxalq təcrübəni, vergi, habelə sığorta qanunvericiliyini və inzibatçılığını araşdırmaq, təhlillər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq, rəy və təkliflər (o cümlədən, təqdimatlar) vermək;

6.14.4. Müasir vergitutma trendlərinin və beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə yerli, beynəlxalq və xarici ölkələrdə keçirilən tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək, Baş idarənin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə İqtisadiyyat Nazirliyində, Dövlət Vergi Xidmətində və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək;

6.14.5. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

6.14.6. Görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

6.14.7. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

6.14.8. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.14.9. Vergi və sığorta inzibatçılığının və qanunvericiliyinin təkmilləşdirilməsi məqsədi ilə beynəlxalq təşkilatların texniki yardım alətlərindən istifadə etmək habelə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə beynəlxalq təşkilatlara və digər dövlətlərin aidiyyəti orqanlarına sorğuların göndərilməsi üçün aidiyyəti struktura müraciət etmək;

6.14.10. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.14.11. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.14.12. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.15. Xarici ölkələrin vergi inzibatçılığının araşdırılması şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.15.1. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə şöbəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim

edilməsini) təmin etmək;

6.15.2. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.15.3. Xarici ölkələrdə tətbiq edilən yeni mexanizmlərin, vergi növləri və vergi inzibatçılığı (yoxlamanın kameral və səyyar formada aparılması qaydası, vergi borclarının alınması ilə bağlı tədbirlər və s.) ilə bağlı islahatların araşdırılmasını, mövcud qanunvericilik və inzibatçılıq ilə müqayisəsini təşkil etmək;

6.15.4. Mövcud vergi və sığorta inzibatçılığı sahəsində beynəlxalq təcrübələri və tendensiyaları araşdırmaq və müvafiq icmallar hazırlamaq;

6.15.5. Müvafiq sahədə vergi siyasətinin formalaşdırılması məqsədilə vergitutma sahəsində qabaqcıl beynəlxalq təcrübələri öyrənərək vergi qanunvericiliyi layihələrinin hazırlanması və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

6.15.6. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.15.7. İdarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.15.8. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.15.9. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.15.10. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.15.11. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.15.12. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.15.13. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və İdarənin rəhbərliyinə təqdim etmək;

6.15.14. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.16. Xarici ölkələrin vergi inzibatçılığının araşdırılması şöbəsinin hüquqları aşağıdakılardır:**

6.16.1. Görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

6.16.2. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, təhlil və ümumiləşdirmələr, həmçinin tədqiqatlar aparmaq, analitik materiallar və təqdimatlar hazırlamaq və aidiyyəti üzrə təkliflər vermək;

6.16.3. Vergi, habelə sığorta qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi məqsədilə xarici təşkilatların və qurumların mövcud məlumat bazalarından istifadə etmək üçün İdarənin rəhbərliyi qarşısında məsələ qaldırmaq, zərurət yarandıqda xarici ekspertlərin dəvət olunması, onlayn görüşlərin keçirilməsi və yazışmaların aparılması üçün aidiyyəti üzrə müraciət etmək;

6.16.4. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.16.5. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

6.16.6. Müasir vergitutma trendlərinin və beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə yerli, beynəlxalq və xarici ölkələrdə keçirilən tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək, Baş idarənin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə İqtisadiyyat Nazirliyində, Dövlət Vergi Xidmətində və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək;

6.16.7. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.16.8. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.16.9. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.16.10. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.17. Qanunvericiliyin monitorinqi və sahibkarlıq subyektləri ilə iş idarəsinin vəzifələri aşağıdakılardır:**

6.17.1. Vergi və sığorta qanunvericiliyinə təklif olunan dəyişikliklərin vergi daxilolmalarına və sığorta haqları üzrə daxilolmalara təsirini təhlil etmək;

6.17.2. Vergi və sığorta qanunvericiliyində baş verən dəyişikliklərin effektivliyini müəyyən etmək üçün monitorinqlər həyata keçirmək, dəyişikliklərin aidiyyəti sahənin iqtisadi göstəricilərinə təsirini təhlil etmək;

6.17.3. Vergi güzəştlərinin və azadolmalarının iqtisadi effektivliyinin müəyyən olunması üçün monitorinqini aparmaq, onların sayını, məbləğini, dinamikasını və iqtisadi effektini təhlil etmək;

6.17.4. İqtisadi sahədə əhəmiyyətini itirmiş vergi güzəştlərinin və iqtisadi aktivliyini bərpa edən sahələr üzrə verilmiş vergi güzəştlərinin monitorinqini aparmaq və ləğv edilməsi imkanlarını təhlil etmək;

6.17.5. Fəaliyyət sahələri üzrə problemlər və onların aradan qaldırılması ilə bağlı təkliflərin öyrənilməsi məqsədilə sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə görüşlər keçirmək;

6.17.6. Fəaliyyət sahələrinin mövcud vəziyyəti barədə sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə müzakirələr aparmaq və qanunvericiliklə bağlı vahid yanaşmanın təmin edilməsi üçün aidiyyəti struktur tərəfindən bu sektor üzrə maarifləndirmə işlərinin aparılması ilə bağlı tədbirlər görmək;

6.17.7. Qanunvericiliyin tətbiqinin sahibkarlıq subyektlərinin fəaliyyətində yaratdığı müsbət və mənfi halları araşdırmaq, real vəziyyətin təhlilini həyata keçirmək və sahibkarlıq subyektləri ilə müzakirələr zamanı müəyyən olunmuş real problemlərin həllinin qanunvericilikdə nəzərə alınması ilə bağlı tədbirlər görmək;

6.17.8. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.17.9. İdarənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə idarəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

6.17.10. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.17.11. İdarənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.17.12. Baş idarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.17.13. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.17.14. İdarədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.17.15. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.17.16. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və Baş idarənin rəhbərliyinə təqdim etmək;

6.17.17. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.17.18. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.18. Qanunvericiliyin monitorinqi və sahibkarlıq subyektləri ilə iş idarəsinin hüquqları aşağıdakılardır:**

6.18.1. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.18.2. Fəaliyyət sahələri üzrə sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları (ödəyici) ilə bağlı iş prosesində aşkarlanan problemlər (praktikada tez-tez rast gəlinən ziddiyyətli məqamların, qanunvericilikdə öz həllini tapmayan halların müəyyən edilməsi və s.) barədə, habelə həmin sahənin göstəriciləri barədə məlumatların əldə edilməsi məqsədi ilə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına sorğuların verilməsi və onlardan belə məlumatların (sənədlərin) alınması ilə bağlı Baş idarənin rəhbərliyinə təklif vermək;

6.18.3. İdarənin vəzifələrinə uyğun olaraq hazırlanmış sənədlərə münasibət bildirilməsi üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına təqdim etmək;

6.18.4. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları arasında koordinasiyanın təmin edilməsi və onların fəaliyyətində səmərəliliyin artırılması istiqamətində təkliflər vermək;

6.18.5. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, uçot-baza məlumatlarından istifadə etməklə təhlil və ümumiləşdirmələr, həmçinin tədqiqatlar aparmaq, analitik materiallar və təqdimatlar hazırlamaq və aidiyyəti üzrə təkliflər vermək;

6.18.6. Dövlət və qeyri-dövlət təşkilatları tərəfindən vergitutma və iqtisadiyyatın digər sahələri üzrə keçirilən tədbirlər, müzakirələr və forumlarda iştirakla bağlı dəvət olduqda, həmin tədbirlərdə iştirak etmək;

6.18.7. Zərurət yarandıqda, sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə keçirilən görüşlərə aidiyyəti dövlət qurumlarını cəlb etmək;

6.18.8. Sahibkarlıq subyektləri ilə keçirilən görüşlər zamanı Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından nümayəndələr cəlb etmək;

6.18.9. Sahibkarlıq subyektləri ilə müzakirələr zamanı müəyyən olunmuş real problemlərin həllini nəzərdə tutan vergi və sığorta qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.18.10. Mövcud vergi siyasəti çərçivəsində sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, digər sahələr üzrə qarşılıqlı birgə əməkdaşlığın genişləndirilməsi ilə bağlı təkliflər vermək;

6.18.11. Zərurət yarandıqda vergi və sığorta qanunvericiliyinə dair təkliflərin və hazırlanmış qanun layihələrinin sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və iqtisadi fəaliyyət sahələrini təmsil edən vergi ödəyiciləri ilə qarşılıqlı şəkildə müzakirəsini təşkil etmək;

6.18.12. Digər struktur bölmələr tərəfindən hazırlanmış normativ-hüquqi aktların, hesabat formalarının və təkliflərin layihələrinə rəy və təkliflər vermək;

6.18.13. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

6.18.14. Görülmüş işlərin işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

6.18.15. İdarəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

6.18.16. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək, həmçinin İdarənin fəaliyyətinə aid olan istiqamətlərdə keçirilən yerli və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

6.18.17. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.18.18. İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.18.19. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.18.20. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.19. Qanunvericilikdəki dəyişikliklərin monitorinqi şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.19.1. Vergi və sığorta qanunvericiliyinə təklif olunan dəyişikliklərin vergi daxilolmalarına və sığorta haqları üzrə daxilolmalara təsirini təhlil etmək;

6.19.2. Vergi və sığorta qanunvericiliyində baş verən dəyişikliklərin effektivliyini müəyyən etmək üçün monitorinqlər həyata keçirmək, dəyişikliklərin adiyyəti sahənin iqtisadi göstəricilərinə təsirini təhlil etmək;

6.19.3. Vergi güzəştlərinin və azadolmalarının iqtisadi effektivliyinin müəyyən olunması üçün monitorinqini aparmaq, onların sayını, məbləğini, dinamikasını və iqtisadi effektini təhlil etmək;

6.19.4. İqtisadi sahədə əhəmiyyətini itirmiş vergi güzəştlərinin və iqtisadi aktivliyini bərpa edən sahələr üzrə verilmiş vergi güzəştlərinin monitorinqini aparmaq və ləğv edilməsi imkanlarını təhlil etmək;

6.19.5. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.19.6. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə şöbəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

6.19.7. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.19.8. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.19.9. İdarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.19.10. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.19.11. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.19.12. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata

keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.19.13. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və İdarənin rəhbərliyinə təqdim etmək;

6.19.14. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.19.15. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.20. Qanunvericilikdəki dəyişikliklərin monitorinqi şöbəsinin hüquqları aşağıdakılardır:**

6.20.1. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.20.2. Şöbənin vəzifələrinə uyğun olaraq hazırlanmış sənədlərə münasibət bildirilməsi üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına təqdim etmək;

6.20.3. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları arasında koordinasiyanın təmin edilməsi və onların fəaliyyətində səmərəliliyin artırılması istiqamətində təkliflər vermək;

6.20.4. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, uçot-baza məlumatlarından istifadə etməklə təhlil və ümumiləşdirmələr, həmçinin tədqiqatlar aparmaq, analitik materiallar və təqdimatlar hazırlamaq və aidiyyəti üzrə təkliflər vermək;

6.20.5. Dövlət və qeyri-dövlət təşkilatları tərəfindən vergitutma və iqtisadiyyatın digər sahələri üzrə keçirilən tədbirlər, müzakirələr və forumlarda iştirakla bağlı dəvət olduqda, həmin tədbirlərdə iştirak etmək;

6.20.6. Digər struktur bölmələr tərəfindən hazırlanmış normativ-hüquqi aktların, hesabat formalarının və təkliflərin layihələrinə rəy və təkliflər vermək;

6.20.7. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

6.20.8. Görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

6.20.9. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

6.20.10. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək, həmçinin Şöbənin fəaliyyətinə aid olan istiqamətlərdə keçirilən yerli

və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

6.20.11. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.20.12. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.20.13. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.20.14. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.21. Sahibkar birlikləri və assosiasiyaları ilə iş şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.21.1. Fəaliyyət sahələri üzrə problemlər və onların aradan qaldırılması ilə bağlı təkliflərin öyrənilməsi məqsədilə sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə görüşlər keçirmək;

6.21.2. Fəaliyyət sahələrinin mövcud vəziyyəti barədə sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə müzakirələr aparmaq və qanunvericiliklə bağlı vahid yanaşmanın təmin edilməsi üçün aidiyyəti struktur tərəfindən bu sektor üzrə maarifləndirmə işlərinin aparılması ilə bağlı tədbirlər görmək;

6.21.3. Qanunvericiliyin tətbiqinin sahibkarlıq subyektlərinin fəaliyyətində yaratdığı müsbət və mənfi halları araşdırmaq, real vəziyyətin təhlilini həyata keçirmək və sahibkarlıq subyektləri ilə müzakirələr zamanı müəyyən olunmuş real problemlərin həllinin qanunvericilikdə nəzərə alınması ilə bağlı tədbirlər görmək;

6.21.4. Qanunvericiliyə uyğun olaraq vergi, kommersiya və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.21.5. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə şöbəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

6.21.6. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı, strategiya və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.21.7. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.21.8. İdarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.21.9. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.21.10. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.21.11. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.21.12. Görülmüş işlərin nəticələri barədə hesabatlar hazırlamaq və İdarənin rəhbərliyinə təqdim etmək;

6.21.13. Müvafiq sahədə səlahiyyətləri daxilində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.21.14. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.22. Sahibkar birlikləri və assosiasiyaları ilə iş şöbəsinin hüquqları aşağıdakılardır:**

6.22.1. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.22.2. Fəaliyyət sahələri üzrə sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları (ödəyici) ilə bağlı iş prosesində aşkarlanan problemlər (praktikada tez-tez rast gəlinən ziddiyyətli məqamların, qanunvericilikdə öz həllini tapmayan halların müəyyən edilməsi və s.) barədə, habelə həmin sahənin göstəriciləri barədə məlumatların əldə edilməsi məqsədi ilə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına sorğuların verilməsi və onlardan belə məlumatların (sənədlərin) alınması ilə bağlı Baş idarənin rəhbərliyinə təklif vermək;

6.22.3. Şöbənin vəzifələrinə uyğun olaraq hazırlanmış sənədlərə münasibət bildirilməsi üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarına təqdim etmək;

6.22.4. Zərurət yarandıqda, sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə keçirilən görüşlərə aidiyyəti dövlət qurumlarını cəlb etmək;

6.22.5. Dövlət və qeyri-dövlət təşkilatları tərəfindən vergitutma və iqtisadiyyatın digər

sahələri üzrə keçirilən tədbirlər, müzakirələr və forumlarda iştirakla bağlı dəvət olduqda, həmin tədbirlərdə iştirak etmək;

6.22.6. Sahibkarlıq subyektləri ilə keçirilən görüşlər zamanı Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından nümayəndələr cəlb etmək;

6.22.7. Sahibkarlıq subyektləri ilə müzakirələr zamanı müəyyən olunmuş real problemlərin həllini nəzərdə tutan vergi və sığorta qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.22.8. Zərurət yarandıqda vergi və sığorta qanunvericiliyinə dair təkliflərin və hazırlanmış qanun layihələrinin sahibkar birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və iqtisadi fəaliyyət sahələrini təmsil edən vergi ödəyiciləri ilə qarşılıqlı şəkildə müzakirəsini təşkil etmək;

6.22.9. Mövcud vergi siyasəti çərçivəsində sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, digər sahələr üzrə qarşılıqlı birgə əməkdaşlığın genişləndirilməsi ilə bağlı təkliflər vermək;

6.22.10. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları arasında koordinasiyanın təmin edilməsi və onların fəaliyyətində səmərəliliyin artırılması istiqamətində təkliflər vermək;

6.22.11. Digər struktur bölmələr tərəfindən hazırlanmış normativ-hüquqi aktların, hesabat formalarının və təkliflərin layihələrinə rəy və təkliflər vermək;

6.22.12. Müvafiq sahədə mütəxəssis hazırlanması və işçilərin ixtisasının artırılması üçün təkliflər vermək;

6.22.13. Görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

6.22.14. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, təhlil və ümumiləşdirmələr, həmçinin tədqiqatlar aparmaq, analitik materiallar və təqdimatlar hazırlamaq və aidiyyəti üzrə təkliflər vermək;

6.22.15. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

6.22.16. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək, həmçinin şöbənin fəaliyyətinə aid olan istiqamətlərdə keçirilən yerli və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

6.22.17. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi

qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.22.18. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

6.22.19. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.22.20. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

* * *